UOT 94(479.24); UOT 902

GÜLŞƏN HÜSEYNOVA
Azərbaycan Hərb Tarixi Muzeyində şöbə rəisi, t.ü.f.d.
yupiter57@mail.ru

AZƏRBAYCANDA SİLAH İSTEHSALININ TARİXİNƏ DAİR BƏZİ MƏLUMATLAR

DOI: https://doi.org/10.36719/2708-065X/112/210-217

Məqalədə qədim dövrdən XIX əsrin əvvəllərinədək Azərbaycanda metalişləmə sənətkarlığının geniş yayılmış sahələrindən olan silahsazlıq və dəmirçilik sənəti, silah istehsalının tarixi, silahsazlığın növləri, soyuq və odlu silahların hazırlanma texnikası, tanınmış silahsaz ustaları mötəbər mənbə və ədəbiyyatlar əsasında tədqiq olunmuşdur. Azərbaycan tarixinin və onun tərkib hissəsi olan hərb tariximizin öyrənilməsində qədim dövrdən XIX əsrin əvvəllərinədək döyüşlərdə tətbiq edilmiş silah nümunələrinin araşdırılması olduqca mühüm sahələrdən biridir. Azərbaycanda silahsazlıq sənəti yalnız peşəkarlıq, estetik incəlik və texnoloji inkişafı deyil, həm də milli-identiteti, hərb tariximizi və gənc nəslə ötürülən vətənpərvərlik ruhunu da özündə əks etdirir. Qədim silahlarımız Azərbaycan döyüşçüsünün peşəkarlığını, hərbi bacarığını nümayiş etdirməklə yanaşı, ölkəmizdə metalişləmənin mühüm istiqamətlərindən olan silahsazlıq sənətinin nə qədər qədim olduğunu, bu sənətin zamanla keçdiyi mürəkkəb inkişaf yolunu izləməyə imkanı verir. Həmçinin silahların tədqiqi Azərbaycanda metalişləmənin ayrı-ayrı sahələrində tətbiq olunan texnika və texnologiyanı müəyyənləşdirməyə, sənətkarlığın inkişaf dinamikası, sənətdaxili ixtisaslaşmanın səviyyəsi haqqında fikir söyləmək üçün böyük əhəmiyyətə malikdir.

Açar sözlər: Azərbaycan, metalişləmə sənətkarlığı, silahsazlıq, dəmirçilik, müdafiə silahları, soyuq silahlar, odlu silahlar.

Giriş. Hər bir xalqın milli mənlik şüurunun və hərbi ənənələrinin formalaşmasında onun hərb tarixinin, keçdiyi döyüş yolunun xüsusi rolu vardır. Qədim və zəngin tarixə malik Azərbaycan xalqının mübarizə tarixində hərb sənəti mühüm yer tutur. Tədqiqatlar göstərir ki, ümumdünya hərb tarixinin inkişafında hərb tariximizin, onu yaradanların, görkəmli sərkərdələrimizin, tanınmış silahsazlarımızın böyük rolu olmuşdur.

Məlumdur ki, sivilizasiya mərkəzlərindən olan Azərbaycan əsrlər boyu mürəkkəb ictimai-siyasi hadisələrin baş verdiyi bölgələrdən olmuşdur. Əlverişli coğrafi mövqeyə malik, təbii yeraltı və yerüstü sərvətləri ilə tanınan Azərbaycan daima qüdrətli imperiyaların beynəlxalq rəqabət meydanına çevrilmiş, bu qədim diyarı öz əsarəti altına salmağa can atmışdırlar. Ona görə də, ərazi bütövlüyü və müstəqilliyi uğrunda mücadələ aparan xalqımız ata-babalarımızdan bizə miras qalan hərbi ruh, məğrurluq, qətiyyət və dözümlülük kimi yüksək keyfiyyətləri sayəsində çoxlu sayda qanlı döyüşlərdə öz tarixi hərbi ənənə və vərdişlərini qoruyub saxlamış, qəhrəmanlıqları ilə adlarını hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazdırmağı bacarmışdır.

Savaş meydanlarında düşmənlə üz-üzə gələn mərd igidlər əliyalın deyil, kəsərli, təkmil yaraqlarla silahlanmış, zirehli əsləhələrlə təchiz olunmuşdurlar. Beləliklə, zamanla ölkəmizdə müdafiə və hücum silahlarının müxtəlif növləri yaranmışdır. Azərbaycanın müxtəlif bölgələrində aparılan arxeoloji qazıntılar zamanı qədim daş dövründən son orta əsrlərədək silah nümunələrinin müxtəlif növləri aşkar olunmuşdur [18, s.40].

Azərbaycan tarixinin və onun tərkib hissəsi olan hərb tariximizin öyrənilməsində qədim dövrdən XIX əsrin əvvəllərinədək döyüşlərdə tətbiq edilmiş silah nümunələrinin araşdırılması olduqca mühüm sahələrdən biridir. Silahlar xalqımızın maddi mədəniyyət abidələri kimi tarixi, mədəni və rəmzi dəyərə malik olmaqla həm də onun milli mənəvi dəyərlərini, soykökünü təsdiqləyən vacib elmentlərdəndir. Qədim dövrdən bugünədək silahlar dövrün elmi-texniki nəaliyyətlərinin fonunda daim inkişaf etmişdir. Silahlar hazırlandığı tarixi dövrün ictimai-siyasi hadisələrini, mədəniyyətini, hərb tarixini əks et-

dirməklə yanaşı, xalq tətbiqi sənətinin inkişafını, dövrün silahsazlarının yüksək peşəkarlığını da özündə təcəssüm etdirir.

Bütün digər sənətkarlıq növləri içərisində silahsazlıq hər zaman xüsusi əhəmiyyət kəsb etmişdir. Çünki bir ölkənin azadlığı, müstəqilliyi və suverenliyi həmin dövlətin silah baxımından hansı səviyyədə təchiz olunmasından çox asılıdır. Ona görə də silahın hazırlanması üçün cəmiyyətin bütün istehsal qüvvələri və ən peşəkar ustalar bu işə cəlb olunurdu.

Hələ daş dövründə insanlar dəyənək, toppuz, toxmaq, koğa, çomaq, yaba, sapand, sapand daşı, yay-ox və s. kimi bəsit zərbə, sancma və atma silah növləri düzəltmiş ilk kəsici-deşici silah növlərinin hazırlanması texnikasına da yiyələnə bilmişdirlər. Azərbaycanın daş dövrü abidələrindən aşkar olunmuş çoxsaylı ibtidai silah növləri qədim insanların silah istehsalı sahəsindəki ilk əməli təcrübəsindən soraq verir [18, s.40].

Hamıya məlumdur ki, Azərbaycan özünün təbii sərvətləri və faydalı qazıntıları ilə hələ qədim zamanlardan zəngin bir ölkə kimi tanınmışdır. Orta əsr mənbələrində bu ərazilərdə qızıl, gümüş, mis, dəmir, neft, qurğuşun və s. sərvətlərin istehsal olunması haqqında məlumatlar yer almaqdadır. Qafqaz, o cümlədən Azərbaycan qədim metallurgiya ocaqlarından biri hesab olunurdu. Təsadüfi deyil ki, Azərbaycanda metal yataqları və metalişləmə ilə bağlı olan bir sıra toponomik adlar hələ də qalmaqdadır [1, s.115; 21, s.3]. Tədqiqatlardan məlum olur ki, Azərbaycan ərazisində hələ e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərindən etibarən metaldan istifadə edilməyə başlanılmışdır. Qədim Azərbaycan əhalisinin istifadə etdiyi ilk metal mis olmuşdur [15, s.6]. İlk vaxtlar əmək alətləri və silahlar müxtəlif formalarda saf misi soyuq döymə üsulu ilə hazırlanırdı. E.ə. IV minillikdə insanlar tərəfindən misin başqa bir xassəsi – qızdırıldıqda istənilən formaya salına bilməsi, soyuduqda isə bu formanı saxlaması icad edildi. Bununla da metalişləmə sənətinin meydana gəlməsinin əsası qoyuldu [15, s.7].

Azərbaycan ərazisindən arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan külli miqdarda tunc əşyalar sübut edir ki, ölkəmizdə hələ e.ə.II minillikdə tunc mədəniyyəti mövcud olmuşdur. S.M.Qazıyev, M.M.Əliyev, M.Ə.Qaşqay kimi tanınmış Azərbaycan alimləri isə Mingəçevirdə 10 m dərinlikdə tapılmış mis baltaya, döymə izləri olan nizəyə əsaslanaraq Azərbaycanda tunc dövrünün mövcud olmasını bir qədər də qədim dövrə - e.ə. III minilliyə aid edirlər. Həmin dövrdə Azərbaycanda metal istehsalı yüksək səviyyədə inkişaf etmiş və bu ərazidə yaşayan tayfalar arasında müxtəlif peşə sahələri üzrə ixtisaslaşmış peşəkar metal emalı ustaları fəaliyyət göstərmişlər [15, s.8].

E.ə I minillikdə Azərbaycanda tunc dövründən dəmir dövrünə keçid başlamış, Qarabağda, Gəncə qəzasının Bayan kəndi yaxınlığında böyük dəmir yataqları mövcud olmuşdur. Gəncə yaxınlığında dəmir və mis filizi mədənlərinin mövcud olması haqqında Həmdullah Qəzvini məlumat vermişdir [5, s.27; 7, s.450].

Azərbaycan ərazisində aparılmış qazıntılar nəticəsində məlum olur ki, hələ e.ə. IV minillikdən Alban ustaları metaldan məharətlə bir sıra silahlar, əmək alətləri və bəzək əşyaları hazırlamışdırlar [15, s.9; 2, s.24].

XI-XII əsrlərdə metalişləmə sənəti, xüsusən də onun başlıca sahəsi olan dəmir emalı əvvəlki dövrlə müqayisədə daha yüksək səviyyəyə qalxmışdı. Bu sahənin inkişafı hər şeydən əvvəl müxtəlif kənd təsərrüfatı və sənətkarlıq alətlərinə, eləcə də soyuq silahlara olan böyük tələbatdan irəli gəlirdi. Bu dövrdə ustalar silah istehsalını bir qədər də təkmilləşdirərək istidöymə üsulu ilə özlərinəməxsus qaydada əritmə və qaynaq əməliyyatları apararaq toppuz, kürz, şeşpər, əmud, mancanaq, qumbara və s. də hazırlayırdılar [7, s.450; 18, s.41]. Həmin dövrdə Gəncə, Bakı, Bərdə, Beyləqan, Qəbələ, Şamaxı, Şabran, Naxçıvan, Lahıc, Təbriz, Ərdəbil kimi şəhərlər sənətkarlıq mərkəzləri kimi məşhur idi [21, s.4]. Orta əsr hərb sənətində barıtın tətbiqi isə yeni silah növlərinin yaranmasında xüsusi rol oynamışdır [18, s.41].

XVI əsrdə Təbrizdə odlu və soyuq silah hazırlama sənəti yüksək səviyyədə inkişaf etmişdir. Burada silahsazlıq sənətinin daxili ixtisaslaşması mövcu idi. Şəhərdə "Qılıncqayıranlar" və "Bıçaqqayıranlar" adlı bazarlar fəaliyyət göstərirdi. Təbriz yaxınlığında Beşkuy adlı yerdə böyük bir sahədə silahsaz ustaları yaşayır və elə orada da silah istehsalı ilə məşğul olurdular [1, s.375].

Soyuq silahlar həmçinin Bakı şəhərində də hazırlanırdı. XVII əsrdə ingilis səyyahı Streys bir müddət Bakıda dəmirçi yanında qul kimi işləmiş bir avropalının sözlərinə əsasən Bakı bazarlarında bıçaq və qılınc hazırlayan dəmirçixanaların fəaliyyət göstərdiyi haqqında məlumat vermişdir [15, s.12]. XVII əsrdə Bakı ilə yanaşı Gəncədə, Ordubadda da müxtəlif soyuq silah növləri hazırlanırdı [15, s.12].

Lakin XVIII əsrin əvvəllərində I Pyotrun 1717-ci il və 1719-cu illərdə imzaladığı fərmanlarla Qafqazın dağlıq hissəsini silah hazırlamaqdan məhrum etmək məqsədilə Rusiyadan Xəzər dənizi sahillərinə dəmir gətirilməsi qadağan edilmişdir. Bu fərman XVIII əsrin ortalarına kimi qüvvədə qalmışdır. Bu səbəbdən həmin dövrdə dəmir, mis və digər metallara böyük ehtiyac yarandığı üçün həmin metallar baha qiymətə satılırdı. Tarixçi S.Bronevskinin məlumatına əsasən Quba xanlığının əhalisi dəmiri Rusiyadan, Osmanlıdan və Mazandaran vilayətindən, qurğuşunu isə Axtı mahalının Quruş kəndindən alırdılar [15, s.13]. Cənubi Qafqazda dəmir mədənlərinə nisbətən mis mədənləri daha çox olduğu üçün mis əldə etmək daha asan idi [15, s.13].

Azərbaycanda metalişləmə sənətkarlığı misgərlik, dəmirçilik, silahsazlıq və zərgərlik olmaqla 4 qrupa bölünürdü. Ən qədim peşələrdən olan silahsazlıq sənəti qədim tarixə malik idi. Azərbaycanda silah istehsalı əsasən iki qrupa bölünür: müdafiə silahları və hücum silahları. Hücum silahları da özlüyündə soyuq silahlar və odlu (isti) silahlar olmaqla 2 növdə hazırlanırdı [13, s.19].

Soyuq silahlar öz növbəsində hücum (həmlə) və müdafiə (mühafizə) yaraqları olmaqla iki qismə ayrılırdı [18, s.43].

Döyüşçülərin şəxsi müdafiə silahları dəbilqə, zirehli əsləhə və əlavə müdafiə elementləri sayılan sinəbənd, qalxan, qolçaq və ayaqlıqlardan ibarətdir [22, s.12]. Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı digər silah növləri ilə yanaşı müdafiə silahlarına aid qalıqlar da tapılmışdır.

Ölkəmizin ərazisində ən qədim zamanlardan istifadə olunan müdafiə silahları arasında döyüş baş örtükləri xüsusi yer tuturdu. İlk döyüş başlıqları göndən hazırlanırdı. Metal başlıqlar Azərbaycan hərb sənətində artıq e.ə.I minilliyin əvvəllərində tətbiq olunmuşdur [21, s.4]. Azərbaycan konusvari dəbilqələri qədim Avropa dəbilqələrindən fərqlənirdi: belə dəbilqə başı nəinki kəsici silahlardan (qılınc, palaş), həm də zərbə silahından (döyüş baltası, şeşpər və s.) yaxşı qoruyurdu. Silah konusvari dəbilqənin üzərindən sürüşür və hündür ucluq düz zərbə endirməyə imkan vermirdi. Dəbilqələrin aşağı hissələrinə metal halqalı toxunma torlar bərkidilirdi. Bu torlar çiyinə düşərək və çənənin altında bağlanaraq, boğazı, qulaqları və üzün bir hissəsini, çiyində olan zaman isə həm də çiyinləri qoruyurdu. Tədqiqatlardan məlum olur ki, ümumilikdə ilk orta əsrlərdə Azərbaycanda 3 dəbilqə növündən sferik dəbilqələrin iki nözü (yarımkürəvi və yumurtavari) və konusvari dəbilqələrdən istifadə edilmişdir. XVII və XVIII əsrlərdə istifadə edilən dəbilqələrin formaları dövrə aid Azərbaycan miniatürlərinin təsvirləri və Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında öyrənilir. Muzeyin fondunda Şamaxı, Təbriz və Azərbaycanın digər şəhərlərində istehsal edilən 35 ədəd dəbilqə mühfizə olunur. Bu dəbilqələrdən doqquzu XVIII –XIX əsrin əvvəllərinə aid edilir [22, s.12].

Müdafiə silahı kimi zirehli əsləhə kiçik dəmir təbəqələrdən hazırlanır, döyüşçünü hücum silahlarının zərbəsindən qorunmaq üçün geyinilirdi. Məftil vasitəsi ilə bir-birinə bağlanmış təbəqələr sıx toxunurdu. Əsləhə bədəni qoruyan əsas hissədən və əlavə hissələrdən (döşü, qarın nahiyyəsini və əlayaqları qorumaq üçün) ibarət idi. Azərbaycan ustaları zərbəyə davamlı, lakin nazik və yüngül, hərəkətə mane olmayan əsləhələr yaratmaqda mahir idilər [22, s.13]. Rasim Əfəndi özünün "Azərbaycan dekorativ tətbiqi sənətləri" adlı kitabında 1580-cı ildə Bakını səyahət edən ingilis səyyahının təəssüratlarından bəhs edərək onun yerli əsgərlərin əynində polad və gümüşlə bəzədilmiş zirehli paltarlara valeh olduğunu yazırdı [10, s.65].

Orta əsrlərdə zirehli əsləhələr 3 növdə hazırlanırdı: yumşaq, bütöv dəmir və halqalı. [22, s.13].

Halqalı əsləhələr Azərbaycan ərazisində e.ə I əsrə aid arxeoloji qazıntılar zamanı Quba rayonunun ərazisindən tapılmışdır. Halqalı əsləhə metal halqalardan ibarət köynək quruluşlu hərbi geyim olub 15 mindən çox halqadan toxunurdu. Belə müdafiə silahları əvvəllər qalın göndən tikilir, sonralar üstünə metal lövhələr də bənd edilirdi. Daha qədim əsləhələr 12-16 kq, son dövr əsləhələri isə 5-9 kq olurdu. Halqalı əsləhələrin istehsal texnologiyasında qaynaq-pərçim texnikasından istifadə edilirdi. Piyadalar uzun, süvarilər isə qısa və aşağı hissələrində, eləcə də ön və arxa tərəflərində kəsikləri olan zirehlər geyirdilər. Halqalı zirehlər Gəncə, Şamaxı, Təbriz, Dərbənd şəhərlərində daha çox istehsal olunurdu [21, s.4].

Halqalı əsləhələr hava keçirir, elastik olur (çantada daşımaq mümükün olurdu) və çəkisi insan bədəninə bərabər olurdu. Bütün bu keyfiyyətləri halqalı zirehin Azərbaycanda geniş yayılmasına səbəb olmuşdur. Halqalı əsləhələrin bütün növlərinə Milli Azərbaycan Tarixi Muzeyində rast gəlmək olar [11, s.129].

Döyüşçünün müdafiəsini daha da möhkəmlətmək məqsədi ilə zirehlərin üstündən əlavə olaraq digər müdafiə vasitələri də taxılırdı. Belin və sinənin müdafiəsi sinəbəndlərin hesabına təmin edilirdi. Sinəbəndlər kəmərlərlə sinədən asılan polad lövhələrdən ibarət idi. Onların üstü qızılı, gümüşü işləmələrlə, nəbati naxışlarla və quran ayələri ilə bəzədilirdi. [21, s.4].

Əlavə müdafiə elementlərindən olan qolçaqlar isə əlin biləkdən dirsəyə qədər olan hissəsini örtürdü. Qolçaqlar əsas və əlavə hissədən ibarət idi. Bazunun iç tərəfini qorumaq üçün qolçaqlara tor halqalar birləşdirilirdi [21, s.5].

Qədim dövr Azərbaycan döyüşçüsünün ən vacib müdafiə elementlərindən biri də qalxan idi. İlk zamanlar iri, düzbucaqlı formada qalxanlardan istifadə edilirdi. Bu növ qalxanlar döyüş zamanı torpağa sancılır, möhkəm sipər kimi piyadaları qoruyurdu. Belə qalxanlar əsasən ağacdan və dəridən düzəldilirdi. Ağac qalxanların səthi metalla örtülürdü, mərkəzdə gözəl bəzədilmiş umbon yerləşdirilirdi. Kiçik dairəvi, dəri qalxanların dərəgah, böyük ölçülü qalxanların isə lamt, tərş kimi növləri var idi. Polad qalxanlar qabarıq şəkildə olurdu. Qalınlığının azalmaması üçün polad qalxanlar kiçik ölçüdə və ağır çəkidə hazırlanırdı. Qalxanlardan həm süvari, həm də piyada dəstələrində istifadə olunurdu. Hərbi yürüş zamanı qalxanları aşırma qayışlarda arxada, döyüş vaxtı isə ya sol əldə, ya da sinədə daşıyırdılar [21, s.5].

Azərbaycan ərzisində istifadə edilən ən qədim silah nümunələri hücum silahlarının bir qolu olan soyuq silah qrupuna aiddir. Bunlara Mingəçevir, Şamaxı, Nüydi, Qırlar, Uzunboylar adlı yaşayış yerlərindən, habelə Qəbələ, Quba, Şəmkir, Lənkəran, Lerik və digər Azərbaycan rayonlarındakı nekropollardan tapılmış qılınc, xəncər, yay-ox, nizə, mizraq (cida), cəng yabası, sapand daşları, «dübaş» adlanan ikipərli nizə ucluqları, kəməndsalan, kəməndqaytaranları misal göstərə bilərik [19, s.168].

Soyuq silahlar tipoloji xüsusiyyətinə görə sancma (cəng yabası, cida), kəsmə (təbərzin, qılınc, xəncər), atma (kəmənd, yay-ox, sapand, nizə, «dübaş» adlanan haça nizə), vurma (toppuz, gürz, əmud, şeşpər) və s. kimi də təsnif olunur [18, s.41,43].

Bu silah növünə aid olan ox-yay hələ ibtidai icma dövründən geniş yayılmışdır. Bəlli olduğu kimi, qədimdə ovçuluqda istifadə olunan bu silah sonralar əsl döyüş alətinə çevrilmişdir. F.Engels ox və kamanın ixtirasını yüksək qiymətləndirərək yazırdı: "İnsan cəmiyyətinin texnoloji və mədəni inkişafını mərhələlərə ayırsan barbarlıq üçün dəmir qılınc, mədəniyyət üçün odlu silah nədirsə, vəhşilik dövrü üçün də ox və kaman eyni şey idi" [16, 181].

Ox ucları formalarına və ölçülərinə görə müxtəlif hazırlanırdı. Onların bir qrupunun ucluğu yarpaqvarı, digərinin ki isə rombvarı olurdu. Bu ox ucluqları arasında yarpaqvarı ox ucluqları daha çox hazırlanırdı. Yarpaq və rombvarı ox uclarının ən kiçiyi 4, 5, ən böyüyü isə 9 sm uzunluğundadır [12, s.54]. Bakıdan arxeoloji qazıntılar zamanı aşkar olunan ox ucluqları öz quruluşlarına görə əvvəlkilərdən fərqlənirlər. Bu növ ox uclarının sulquncu uzundur. İçərisində sulquncu tilli olanlar da vardır ki, bu da müasir tüfəng süngüsünün formasını xatırladır. Belə ox uclarının mənşəyi qədimdir [14, s.13].

Orta əsrlərdə geniş yayılmış silah növlərindən biri də nizədir. Azərbaycanın orta əsr şəhərlərindən arxeoloji qazıntılar nəticəsində xeyli, həm də müxtəlif formalı nizə ucluqları əldə edilmişdir. Məsələn, Arxeoloji qazıntılar nəticəsində Bakıdan tapılmış nizə ucluğunun uzunluğu 4.5sm, ağaca keçirilən hissəsinin diametri isə 1.7sm-dir. Bəhs etdiyimiz nizənin eyni oxşarı Beyləqanda aparılan qazıntılar zamanı aşkar edilmişdir. IX-XIII əsrlərə aid belə konusvarı nizə ucluqları ancaq ölçüsünə görə bir-birindən fərqlənirdi. Beyləqandan tapılan nizə ucluğunun uzunluğu 11 sm idi. Nizə ucluqları konusvari və yarpaqvarı formadadır. Nizə ucluqlarının dəstəyi ağacdan olduğu üçün uzun müddət torpaqda qaldığından ağac çürümüş və qazıntı zamanı yalnız metal ucluqlar tapılmışdır [13, s.91].

Ənənəvi döyüş silahlarından olan qılınc və xəncər qədimdə olduğu kimi orta əsrlərdə də əlbəyaxa döyüş silahı kimi geniş istfadə edilmişdir. Bu dövrün anlamına görə əgər döyüşçü bütün silahlarla silahlanıb ancaq qılıncı yox idisə onun silahlanması qaneedici hesab olunmurdu. Qədim və ota əsrlərdə digər silahlardan fərqli olaraq bütün qoşun növləri qılıncla silahlanırdı [1, s.117]. 1967-ci ildə Bakıda aparılan arxeoloji qazıntılar zamanı qədim mədəni təbəqənin 4.3m dərinliyindən bir ədəd sulgucunun ucu qırılmış, qalmış uzunluğu isə 22 sm olan xəncər tiyəsi tapılmışdır [3].

Xəncərin Azərbaycan ərazisində geniş yayılmasının bir göstəricisi də arxeoloji qazıntılar nəticəsində Bakıda aşkar edilmiş XIV – XVII əsrlərə aid məzar daşlarının üzərində ox, kaman, qalxan və s. silahlarla yanaşı, qılınc və xəncər rəsmlərinin təsvirləridir [13, s.22]. Döyüşçülərin dəfn olunduğu bu

baş daşılarındakı silahlar içərisində qılınc və xəncərin olması faktı həmin dövrdə ordu heyətində bu növ silahlardan kütləvi şəkildə istifadə edilməsi tarixi mənbələrin məlumatını təsdiq edir.

Soyuq silah növlərindən olan xəncər feodal sinfinin kişi geyiminin vacib elementlərindən biri hesab edilirdi. Xəncərlər tiyəsinin formasına görə 2 növə bölünürdü: Tiyəsinin hər iki tərəfi iti, enli və düz olub uca doğru daralaraq sivriləşən xəncər növlərinə Bakıda aparılan arxeoloji qazıntılarda rast gəlinmişdir. Digər növ xəncər isə bir ağızlı olması ilə fərqlənirdi [1, s.117].

Universal bir alət olan bıçaqlardan da soyuq silah kimi döyüşlərdə geniş istifadə olunurdu. Bakıdan tapılan bıçaqların bir qrupu xəncəri xatırladır, təsərrüfat və məişət bıçaqlarından fərqlənirdi. Bıçaqların bir tərəfi iti, digəri isə nisbətən qalın olurdu. Bıçaqların sapı ağac və ya sümükdən hazırlanırdı [13, s.24].

Tədqiqatlar göstərir ki, xəncər tipli hərbi bıçaqların mənşəyi çox qədimdir. Mingəçevirdən bu növ xeyli bıçaq tapılmışdır. Bəzi mənbələrdə həmin bıçaqların xəncər rolu oynadığı qeyd edilərək xəncərin belə bıçaqların sonrakı inkişafı ilə əlaqədar yarandığı fikri də irəli sürülür [13, s.25].

Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar onu deməyə əsas verir ki, döyüşlərdə toppuzdan da geniş istifadə olunmuşdur. Belə ki, 1964-cü ildə Bakıda Qız qalası yaxınlığında baş daşılardan toppuz rəsmləri aşkar edilmişdir. Abşeron əhəng daşından hazırlanmış məzar daşları XIV-XVII əsrlərə aid edilir. Məzar daşlarından birinin üzərində yəhərli at, qılınc, xəncər və toppuz, digərində isə ox, kaman, qılınc və qalxan təsvir edilmişdir. Üzərində at və çoxlu silah şəkli olan bu qəbrlərdə dəfn edilən döyüşçülərdən biri atlı, digəri isə piyada döyüşçüyə aiddir. Silahların içərisində toppuzun olması isə orta əsrlərdə Bakıda bu silah növündən də istifadə edildiyini aydın göstərir. Toppuzun yalnız atlı döyüşçüyə aid olan baş daşında təsviri isə onun yalnız süvari və ya başçıların gəzdirə biləsinə işarədir [13, s.25].

Respublikamızın ərazisində geniş yayılmış sahələrdən biri də odlu silah istehsalı idi. Azərbaycanın ənənəvi odlu silahları atəş saçma üsuluna görə "çaxmaqlı" və "pistonlu" olmaqla iki növdə hazırlanırdı [18, s.43].

Odlu silah nümunələrinə tüfənglər, müxtəlif tipli tapançalar, kiçik topların istehsalı daxil idi. Odlu silah istehsalının özü də lülə, çaxmaq, qundaq istehsalı kimi sahələrə ayrılırdı.

Odlu silah istehsalı işində təzə dəmirdən daha artıq köhnə dəmirdən, xüsusilə naldan istifadə edilirdi. Gəncə və Lahıc silahsazları köhnə dəmir ilə polad qarışığından istifadə etməyə üstünlük verirdilər [15, s.86].

Azərbaycanda odlu silah istehsalı Avropadan fərqli olaraq bir sıra xüsusiyyətlərinə görə fərqlənirdi. Məs., tüfənglərin lülələri nisbətən uzun və cövhərli, xaricdən əksər hallarda tilli (tin-tin), daxildən xırsız (yivsiz) olurdu. Yivli silahlara nadir hallarda təsadüf edilirdi. Tüfənglərin qundaqları oval formada olub, daha çox İran silahlarının qundağına oxşayırdı [15, s.85].

Tədqiqatlardan məlum olur ki, Qafqazda hazırlanan odlu silahlar texniki cəhətdən Türkiyə silahları səviyyəsində idi. Onların əsas fərqi milli naxışların müxtəlifliyindən ibarət idi [15, s.84].

Yazılı mənbələrin məlumatına əsasən, XIX əsrin əvvəllərində odlu silah istehsalı Gəncə, Nuxa, Cəbrayıl qəzalarında, Şamaxı, Göyçay və Qubada da nisbətən geniş inkişaf etmişdi [15, s.87].

Lahic ustalarının hazırladıqları silahlar bütün Şirvan, Nuxa, Quba, Qarabağ və Bakı əyalətlərinə, Dağıstan və İranın bəzi yerlərinə göndərilirdi. Lahıc ustaları bütün işi əl ilə görürdülər. Ona görə də iş çətin olur, çox gec yerinə yetirilirdi [15, s.85]. Bəzi ustalar odlu silah hazırlanması sahəsində böyük şöhrət qazanmışdılar. Belə ustalardan biri Əbdülrəhim bir ay ərzində bir tüfəng və iki tapançadan artıq hazırlaya bilmirdi. Lakin onun hazırladığı lülələr alıcılar tərəfindən sevilir, qundağı və başqa ləvazimatı olmadan belə böyük həvəslə alınırdı. Əbdülrəhimin hazırladığı silah bazarda 5 -10 çervon arası satılırdı.

Başqa ustaların hazırladıqları lülələr isə 3- 8 çervon arası qiymətə satılırdı.

Tədqiqatlara əsasən Şamaxı qəzasına silah istehsalı sahəsində şöhrət qazandıran da məhz Lahıc və onun ətrafında yerləşən kəndlər olmuşdur. Bu Şamaxı şəhərinin gerbində də öz əksini tapmışdır. Milli Azərbaycan Tarix Muzeyinin fondunda qorunan bu gerbin üzərində başqa təsvirlərlə yanaşı çarpazlaşdırılmış iki tüfəng şəkli də verilmişdir [15, s.87].

XIX əsrin əvvəllərinə Lahıc ustaları silah istehsalı məqsədi ilə dəmiri Bakı qalasından alırdılar. Bakıdan Lahıca aparmaq üçün 10 pud dəmirə 3 manat gümüş pul ödənilirdi. Dəmiri lazımı yerinə bakılılar özləri gətirib çıxartdıqda isə puduna 2 manat gümüş pul alırdılar [15, s.87].

Mənbələrdə XIX əsrdə Azərbaycanda mövcud olan silahsaz emalatxanalarının və burada çalışan ustaların sayı haqqında qismən də olsa məlumatlar vardır. Məsələn, XIX əsrin 30-cu illərində Şamaxıda 26 nəfər silahsazın (onlardan 5 -i təbərzin, 9-u nəfəri xəncər, 12-u qundaq, 1-i isə silah qundağına qızıldan naxış salan usta idi) fəaliyyət göstərdiyi haqqında məlumat verilmişdir. Əsrin ortalarına doğru isə Şamaxı şəhərində silah ustalarının sayı 66 nəfərə çatmışdır [8].

Yadelli işğalına məruz qalmasına baxmayaraq, Azərbaycanın digər şəhərlərində də silahsazlıq sənəti davam etdirilirdi. Məsələn, 1848-ci ildə təkcə Şəkidə 13 nəfər usta [9], Şuşa, Naxçıvan, Ordubad şəhərlərinin hər birində 2-3 silah ustası, 7 dəmirçi dükanı, Lahicda 8 silah dükanı, Buduq mahalının (indiki Quba rayonu) Yərfi və başqa kəndlərində isə tüfəng, tapança, qılınc və başqa silahlar hazırlayan dükanlar fəaliyyət göstərirdilər [15, s.15].

1865-ci illərdə isə Gəncədə 35 dəmirçi, 23 tüfəngsaz, Naxçıvanda 198 dəmirçi, 8 tüfəngsaz, Ordubadda isə 28 dəmirçi və 3 tüfəngsaz ustaları fəaliyyət göstərirdilər [15, s.16].

Tədqiqatlardan məlum olur ki, XIX əsrin sonlarında Azərbaycanda silah istehsalı kəskin surətdə azalmışdır. Belə ki, həmin əsrin 80-ci illərində Şamaxıda 2 nəfər, Bakıda 3-4 nəfər, Lənkəranda 2 nəfər, Gəncədə 8 nəfər, Şuşada 1 nəfər, Şəkidə 11 nəfər, 1885- 1886-cı illərdə Ərəş qəzasının Ağdaş kəndində isə 3-4 nəfər silah istehsalı ilə məşğul olurdu [18, s.43].

XIX əsrin sonlarında Qafqazda istehsal olunan silahların qiyməti fərqli bölgələrdə müxtəlif idi. Xəncər 1 rubldan 5 rubladək, qılınc 5 rubldan 20 rubladək, tüfəng isə 5 rubldan 10 rubladək qiymətə satılırdı. Silahsaz çilingərin orta illik əmək haqqı isə 100-225 rubl arası hesab olunurdu. [17, s.145].

Lakin, mövcud statistik materiallar XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda odlu silah istehsalının tənəzzülə uğradığını və XIX əsrdə Avropa silahsazlarının əldə etdikləri müvəffəqiyyətlərdən geri qaldıqlarını göstərir. Bəzi tədqiqatçılar bunun əsas səbəblərindən biri kimi yerli ustaların öz texnoloji sirlərini məxvi saxladıqlarını qeyd edirlər [15, s.85]. Bunun digər əsas səbəblərindən biri isə Tula və Belçikadan daha ucuz başa gələn silahların idxalı və Qafqaz müharibəsindən sonra burada odlu silah istehsalının qadağan edilməsi idi [17, s.155].

Nəticə. Beləliklə, Azərbaycanda silahsazlıq sənəti yalnız peşəkarlıq, estetik incəlik və texnoloji inkişafı deyil, həm də milli-identiteti, hərb tariximizi və gənc nəslə ötürülən vətənpərvərlik ruhunu da özündə əks etdirir. Yuxarıda Azərabaycan ərazisində qədim dövrdən XIX əsrin sonlarınadək döyüşlərdə istifadə olunan silah nümunələri Azərbaycan döyüşçüsünün peşəkarlığını, hərbi bacarığını nümayiş etdirməklə yanaşı, ölkəmizdə metalişləmənin mühüm istiqamətlərindən olan silahsazlıq sənətinin nə qədər qədim olduğunu, bu sənətin zamanla keçdiyi mürəkkəb inkişaf yolunu izləmək imkanı verir. Həmçini silahların tədqiqi Azərbaycanda metalişləmənin ayrı-ayrı sahələrində tətbiq olunan texnika və texnologiyanı müəyyənləşdirməyə, sənətkarlığın inkişaf dinamikasını, silahsazlıq sənətində daxili ixtisaslaşmanın səviyyəsi haqqında fikir söyləmək üçün böyük əhəmiyyətə malikdir. Haqqında məlumat verilən bu silah nümunələri bizə təkcə tarixi deyil, həm də kimliyimiz barədə danışır. Onların naxışları, forma və funksiyaları bu sənətin nə qədər dərin və zəngin olduğunu göstərir. Babalarımızdan bizə miras qalan bu maddi mədəniyyət abidələri hərb tariximizin şücaət dolu səhifələrinin gənc nəslə çatdırılması və onların milli-vətənpərvərlik ruhunda tərbiyə olunmasında xüsusi rola malikdir.

ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası. VI cilddə. VI cild. Bakı, Şərq-Qərb, 2008, 632 s.
2. Azərbaycanın maddi mədəniyyəti. V cilddə. I cild. Bakı, 1964, 185 s.
3. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Arxivi. İsmizadə Ö.Ş., Qədirov F.V. 1967-ci ildə Bakıda aparılan arxeoloji qazıntının hesabatı. 0-09; № 18; 0-09/2; №19.
4. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Arxivi. İbrahimov F.Ə. IX-XII əsrlərdə Azərbaycan şəhərlərində metalişləmə sənəti. f.1, siy.15, iş 6600, s. 91.
5. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitunun Elmi Arxivi (tərcümə edən İ.P.Petruşevski), inv. 533, s.27.

6. Azərbaycanın qədim və orta əsr silahları (MATM Arxeologiya fondunun materialları əsasında). Kitab-albom, Bakı, 2018, 32 s.
7. Azərbaycan tarixi. 7 cilddə. II cild. (III-XIII əsrin I rübü). Bakı, Elm, 2007, 608 s.
8. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi. f.10, siy.l. iş 14, v.l-90l.
9. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi. f.37, siy.l, iş.25, v. 1- 439.
10. Əfəndi Rasim. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı, İşıq, 1976, 190 s.
11. Əhmədov Səbuhi. Azərbaycan Tarixi Muzeyinin Müdafiə geyimləri. Bakı, Elm, 210 s.
12. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri (tarixi-arxeoloji tədqiqat). Bakı, Elm, 1979, 197 s.
13. İbrahimov F. Bakıda metalişləmə tarixi (IX-XVII əsrlər). Bakı, Elm, 1995, 88 s.
14. Qazıyev S.M. Mingəçevirdən tapılmış bəzi silahlardan. Bakı, Elm, 1951, 135 s.
15. Quliyev Həsən, Tağızadə Namiq. Metal və xalq sənətkarlığı. Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1968, 106 s.
16. Marks K., Engels F. Seçilmiş əsərləri. II cild. Bakı, Azərnəşr, 1953, 545 s.
17. Mazanova N. XVIII əsrin sonu – XX əsrin əvvəllərində Şəki şəhərində metalişləmə sənətkarlığı haqqında. // İpək yolu, № 4, 2020-ci il, s.139-149.
18. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, Bakı Universitetinin nəşriyyatı, 2009, 420 s.
19. Osmanov F. Azərbaycanın antik dövr hərb tarixindən // Tarix və onun problemləri, №1, 1997, s.167-171.
20. Vahabova S. Azərbaycanın soyuq və odlu silahları. Bakı, Elm və təhsil nəşriyyatı, 2016-cı il, 119s.
21. Vahabova S. Azərbaycanın müdafiə silahları (MATM kolleksiyasından). Bakı, 2012, 79 s.
22. Vahabova S. Azərbaycanın son orta əsr silahlarının öyrənilməsində muzey materiallarının rolu. Avtoreferat. Bakı, 2011, 26 s.

ГЮЛЬШАН ГУСЕЙНОВА
Начальник отдела Военной истории
Военно-Исторического Музея Азербайджана, к.и.н.

НЕКОТОРЫЕ СВЕДЕНИЯ ИЗ ИСТОРИИ ПРОИЗВОДСТВА ОРУЖИЯ В АЗЕРБАЙДЖАНЕ

В статье рассматривается оружейное и кузнечное дело, являющиеся распространёнными отраслями метало-обработки в Азербайджане с древнейших истории Азербайджана времён до начала XIX века. На основе достоверных источников и литературы рассматриваются история оружейного дела, виды оружейного дела, техника изготовления холодного и огнестрельного оружия, а также мастерство известных оружейников.

Изучение военной истории Азербайджана, являющейся неотъемлемой частью истории Азербайджана, изучение образцов оружия, использовавшегося в сражениях с древнейших времён до начала XIX века, является одним из важнейших направлений.

Оружейное искусство в Азербайджане отражает не только профессионализм, эстетическую изысканность и технологическое развитие, но и национальную идентичность, его военную историю и дух патриотизма, передаваемый молодому поколению. Старинное оружие, помимо демонстрации профессионализма и военного мастерства азербайджанского воина, даёт возможность проследить древность истории оружейного искусства, являющегося одним из важных направлений метало-обработки в нашей стране и сложный путь развития, этого искусства за этот период. Изучение истории оружия, также имеет большое значение для определения методов и технологий, в различных областях метало-обработки применяющихся в Азербайджане, с целью получения представления о динамике развития и уровня специализации данного ремесла.

Ключевые слова: Азербайджан, металлообрабатывающее ремесло, оружейное дело, кузнечное дело, оборонительное оружие, холодное оружие, огнестрельное оружие.

GULSHAN HUSEYNOVA
Head of the Military History Department
Military History Museum of Azerbaijan, c.h.s.

SOME INFORMATION FROM THE HISTORY OF WEAPONS PRODUCTION IN AZERBAIJAN

The article discusses weapons and blacksmithing, which are common branches of metalworking in Azerbaijan from the most ancient times in the history of Azerbaijan to the beginning of the 19th century. Based on reliable sources and literature, the history of weapons, types of weapons, manufacturing techniques of cold and firearms, as well as the skills of famous gunsmiths are considered.

Studying the military history of Azerbaijan, which is an integral part of the history of Azerbaijan, studying the samples of weapons used in battles from ancient times to the beginning of the 19th century, is one of the most important areas.

Weaponry in Azerbaijan reflects not only professionalism, aesthetic sophistication and technological development, but also national identity, its military history and the spirit of patriotism passed on to the younger generation. Ancient weapons, in addition to demonstrating the professionalism and military skill of the Azerbaijani warrior, make it possible to trace the antiquity of the history of weapons, which is one of the important areas of metalworking in our country and the complex path of development of this art during this period. The study of the history of weapons is also of great importance for determining the methods and technologies used in various areas of metalworking in Azerbaijan, in order to gain an idea of the dynamics of development and the level of specialization of this craft.

Keywords: Azerbaijan, metalworking, weapons, blacksmithing, defensive weapons, bladed weapons, firearms.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Hacı Həsənov, t.e.d. Əmrah Dadaşov.